# Cənubi Azərbaycanın dünya şöhrətli müğənniləri - Şimalla Cənub arasında möhkəm mənəvi körpü

**Xalqımızın 200 illik həsrətini canında daşıyan, sözə, musiqiyə, səsə hopduran bu əsər Arazın o tayında, Cənubi Azərbaycanda ustad Əli Səlimi tərəfindən yazılıb. Qoparılan, parçalanan torpağımızın qan süzülən ürəyindən, yaş süzülən gözlərindən axıb gedən bir haraydır. Güney Azərbaycan müğənniləri də bu əsəri can köynəklərindən keçirib ürək göynəyi kimi oxuyublar.**










*Ayrılıq, ayrılıq, aman ayrılıq*
*Hər bir dərddən olur yaman ayrılıq!*

Ququş, Yaqub Zurufçu, daha kimlər bu əsərin sehrinə düşməyib ki... Uzun illər radio dalğalarından süzülən, güneydən gələn Araz nidalı səslərə qulaq asardıq, soydaşlarımızın səsini, adını əzbərləyərdik ki, sabah fərqləndirə biləк. Niyə "Ayrılıq" mahnısının adını çəkdik? Ona görə əslən güneydən olan müğənnilərin böyük əksəriyyəti bu mahnını ifa ediblər. Dünyada o taylı, bu taylı Azərbaycanın səsinə çevirilən əməkdar artist mərhum Yaqub Zurufçu, ABŞ-da yaşayan müğənni Ququş, Arazın gətirdiyi ayrılıq, Vətən dərdi sinəsində qanayan yaraya çevirilən Araz Elsəs, daha neçə-neçə güneyli sənətkarlar həm Cənubi, həm də Şimali Azərbaycan arasında canlı körpü rolunu oynayıblar. Təbii, Ququş bir qədər fəqrli yanaşıb bu məsələyə. Amma Yaqub Zurufçu və Araz Elsəsin bütöv Azərbaycan məsələsində inamı da, əqidəsi də tam olub.

**Molla rejimi hakimiyyətə gələndən sonra ölkəni tərk edən sənətkar...**

Əslən Güney Azərbaycandan olan tanınmış vokalist və musiqiçi Yaqub Zurufçu 8 aprel 1956-cı ildə Təbriz şəhərinin Çərandab məhəlləsində dünyaya gəlib. 7 yaşında Fərvərdin Mədrəsəsində ilk təhsilə başlayan Yaqub elə o illərdə Təbrizdə uşaq proqramlarında iştirak edib və məşhur "Cücələrim" mahnısı ilə həm Azərbaycanda, həm də İranda dillər əzbəri olub. 11 yaşında Azərbaycanın xalq mahnıları və bəstəkar mahnılarıyla tanış olan və onları məharətlə, şövqlə ifa edən Yaqub Zurufçu 15 yaşında Təbrizin Milli Televiziyasında ilk dəfə çıxış edərək, tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanan "Evləri var xana-xana", "De, gülüm gəlsin, ay nənə", "Dilbər" mahnılarını ifa edib. Müğənni özünün musiqiyə olan böyük həvəsini, istedadını və oxumaq istəyini hər zaman atasının bir vaxtlar Bakıda yaşaması və Azərbaycan musiqisinə olan böyük sevgisi ilə izah edirdi.

Tamaşaçıların, çoxsaylı musiqi həvəskarlarının xahişi ilə onu sonralar da vaxtaşırı Təbriz və Tehranın Radio və Televiziyaları öz musiqili proqramlarında çıxış etməyə dəvət edirdilər. Tehran Operasının xorunda öz musiqi fəaliyyətini davam etdirən sənətkar 1979-cu ildə molla rejimi hakimiyyətə gələndən 1 il sonra 1980-ci ildə İranı tərk edib, Almaniyaya köçməli olub. O, öz peşəkar musiqi təhsilinə Hamburq şəhərində başlayıb və vokal sənəti üzrə diplomlu musiqiçi kimi daha sonra Amerikanın Florida ştatının Myami Universitetində vokal sənəti üzrə ali mütəxəssis diplomuna layiq görülür...

Y.Zurufçu barədə geniş bəhs etmək olardı, amma barəsində söz açmalı olduğumuz digər güneyli sənətkarlar da var.

Güney Azərbaycandan olan Araz Elsəs isə 27 noyabr 1971-ci ildə Urmiya gölünün yaxınlığında yerləşən Sulduz şəhərində anadan olub. Uşaqlıq çağlarından musiqiyə böyük maraq göstərib. O, gənc yaşlarından doğma yurdunu doğma dildə oxşamağa başlayır. Sazı və sözü ilə illərin yuxusuna batmış ulusunu oyanmağa səsləyir.

Daha sonra siyasi səbəblərdən çətinliklərlə üzləşərək, 1991-ci ildə Quzey Azərbaycana köçür. 1997-ci ildə Avropa yazarlar parlamenti tərəfindən siyasi şair, ozan olaraq Norveçə çağırılır. O dövrdən Avropada yaşayır, müxtəlif ölkələrdə azərbaycanlılar içində konsertlər verir. Müğənni 2000-ci ildə isə İsveçə köçüb.

**Şah rejimini hədəfə aldığı üçün 9 ay həbsxanada yatan müğənni...**

Güney Azərbaycanın digər tanınmış müğənnisi Daryuş İqbaldır. Sənətkar 1951-ci il fevralın 4-də Şərqi Azərbaycan əyalətinin Miyana şəhərində mülkədar ailəsində anadan olub. Uşaqlıq illərini həmin şəhərdə keçirən Daryuş 9 yaşındaykən məktəbdə musiqi və tamaşa proqramlarında iştirak edib. Orta təhsilini Tehranda davam etdirən müğənni 1971-ci ildən musiqi ilə ciddi şəkildə məşğul olmağa başlayıb. Həmin il o, "Be mən nəqu ke duset darəm" ("Demə ki, sevirəm səni") mahnısı ilə məşhurlaşıb.

1975-ci ildə o, mahnılarında şah rejimini hədəfə aldığı üçün 9 ay həbsdə olub. İran mətbuatı ölkənin keçmiş təhlükəsizlik idarəsinin (SAVAK) diktəsi ilə həbsi Daryuşun "narkoman olmasıyla" əlaqələndirib. Sonralar təhlükəsizlik qüvvələri müğənninin siyasi məzmun daşıyan "Cəngəl" ("Meşə"), "Pəriya", "Rəhai" ("Qurtuluş") mahnılarına görə tutulduğunu etiraf edib.

İran İslam Respublikası bərqərar olmazdan (1979-cu il) az əvvəl ölkəni tərk edən müğənni əvvəlcə Böyük Britaniyada, bir müddət sonra isə ABŞ-da məskunlaşıb və musiqi fəaliyyətini davam etdirib.

Xaricdə yaşadığı son 30 ildə müğənni dəfələrlə dünyanın müxtəlif ölkələrində, o cümlədən də ABŞ, İngiltərə, Almaniya, Yaponiya və Kanadada çoxlu konsertlər verib...Bir neçə beynəlxalq mükafata layiq görülən sənətkarın 25 albomda 200-dən çox mahnısı toplanıb, o bir neçə bədii filmə də çəkilib.

**Turqut Ozalın "Qızıl Kəpənək" verdiyi güneyli müğənni kimdir?**

Güney Azərbaycanın tanınmış müğənnisi və aktyoru Huşəng Azəroğlu 1985-ci ildə Türkiyədə musiqi üzrə "Qızıl Kəpənək" mükafatına layiq görülüb.

Huşəng Azəroğlu 1938-ci ildə Ənzəli şəhərində anadan olub. 13 yaşında ikən hər iki valideynini itirib. Bir müddət özünü peşəkar idmanda sınayıb, İranın milli komandasında güləşib. Gənc ikən Bakı radiosundan yayımlanan Azərbaycanın muğam musiqisindən xüsusilə Xan Şuşinski və Cabbar qaryağdıoğlununun ifalarından təsirlənərək Vəli Vahid və Məşədi Salamat kimi musiqi ustadlarından musiqi təhsili almağa başlayır. Sonrakı illərdə Mustafa Payanın şagirdi olur. O, 1979-cu ilə, yəni molla rejimi hakimiyyətə gələnə qədər 20 filmdə rol oynayıb. Məşhur aktyor Məhəmmədəli Fərdin ilə birlikdə Gənc-i Qarun filmində də rol alıb. İranda islam inqilabından sonra İstanbula köçüb, uzun illər orada yaşayıb. Türkiyədə də İstanbul və TRT radioları ilə əməkdaşlıq edib. Müğənni Əli Səliminin bəstələdiyi "Sizə salam gətirmişəm" mahnısını ifa etdikdən sonra Türkiyədə məşhurlaşıb. O həmin mahnıya görə 1985-ci ildə Türkiyənin prezidenti Turqut Ozal tərəfindən "Qızıl Kəpənək" mükafatı ilə təltif olunub. Dəfələrlə Kanada, İngiltərə, Fransa, ABŞ və Türkiyədə konsertlər verib. Ömrünün son illərini Urmiyada keçirən müğənni 19 iyun 2019-cu ildə Ənzəli şəhərində dünyasını dəyişib.

**Molla rejiminin sənətinə qadağa qoyduğu Ququş...**

Əsl adı Faiqə Atəşin olan Azərbaycan əsilli müğənni və aktrisa Ququş 5 may 1950-ci ildə Tehranda Sarıçeşmə küçəsində, kasıb bir məhəllədə dünyaya gəlib. Azərbaycanlı mənşəli valideynləri Bakıdan köçmüşdülər. Ququş hələ uşaq ikən, valideynləri bir-birindən ayrılır. Canbaz və əyləndirici artist olan atası Sabir yaşı üçün mükəmməl səsə malik qızını tez-tez özüylə səhnəyə çıxarır, ona mahnılar oxutdurur. Sonralar Ququş şah sarayında və şahanə məclislərində çıxış etməyə başlayır. 7 yaşından filmlərə çəkilir.

1945-1946-cı illərdə Seyid Cəfər Pişəverinin yaratdığı Milli Ordunun polkovniki, əslən gəncəli olan Qulu Sübhinin nəvəsi olan olan Ququş 1971-ci ildə Fransanın Kann şəhərində fransız dilində ifa etdiyi "Retour de la ville" və "J'entends crier je t'aime" mahnılarına görə birinci yeri tutur. O, "Ayrılıq" mahnısının ifasına görə daha çox tanınır.

Molla rejimi tərəfindən bu ölkədə Ququşun həm müğənni, həm də kino aktrisası kimi fəaliyyətinə qadağa qoyulub və o 2000-ci ildə ABŞ-a köçüb. Hazırda orada yaşayır.

**Araz qrupunun yaradıcısı...**

Digər məşğur azərbaycanlı müğənni, Araz musuqi qrupunun qurucusu Rəhim Şəhriyaridir. 1970-ci ildə Şənbi-Qazanda anadan olan müğənni müxtəlif musiqi üslublarında oxuyur. Rəhim Şəhriyari pop və muğam ritmələri bir yerdə də ifa edir. İran adlanan molla rejimində populyarlıq qazanmış bir çox musiqinin müəllifidir.

Dünyanın müxtəlif ölkələrində konsertlər verən sənətkar Azərbaycan xalq mahnılarını xüsusi məharətlə ifa edir...

Barələrində danışdığımız sənətkarlar güneyli soydaşlarımızın çox az bir hissəsidir. Bu gün Güneydə çox istedadlı Azərbaycan müğənnilər var ki, onlar burada da çox populyardır. Əlbəttə, bu müğənnilərin ifaları bizim xalq olaraq məni birliyimizi daha da gücləndirir. Çünki onlar ana dilində mahnılar oxuyur və dilimizi, mədəniyyətimizi yaşadırlar.

***İradə SARIYEVA***

**P.S. Yazıda bu sənətkarlar barədə müxtəlif resurslarda yayılan informasiyalardan istifadə olunub.**